# <u>“Rezidentlik sertifikatının alınması haqqında ərizə (DTA 01-Forması)”</u>

## <u>elektron xidmətinin</u>

## <u>İstifadəçi təlimatı</u>

**<u>“Rezidentlik sertifikatının alınması haqqında ərizə (DTA 01-Forması)”</u>** elektron xidmətindən istifadə edilməsi məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə [https://new.e-taxes.gov.az](https://new.e-taxes.gov.az) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA Token;
- SİMA imza.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Rezidentlik sertifikatının alınması haqqında ərizənin (DTA 01-Forması)” təqdim olunması məqsədilə “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq ərizə forması seçilə bilər.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni ərizə forması yaratmaq istədikdə isə, **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında əks olunan **"Siyahıya qayıt"** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **"İmtina"** düyməsini sıxmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **"Xeyr, silinsin"** düyməsini sıxmaqla yaradılmış ərizə formasını silmək, **"Bəli, yadda saxlanılsın"** düyməsini sıxmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.






“Xeyr, silinsin” düyməsi vasitəsilə açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.




**“Ümumi məlumatlar” bölməsi**

Ərizə formasında “Vergi orqanı”, “Vergi ödəyicisi” və “Rəhbər” barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




Faktiki ünvan məlumatları hüquqi ünvan məlumatlarından fərqli olduqda, bu zaman “Faktiki ünvan hüquqi ünvanla eynidir” sətri üzrə müvafiq seçim ləğv edilərək faktiki ünvan bölməsi üzrə müvafiq xanalara məlumatlar daxil edilir.



**“Digər məlumatlar” bölməsi**

Ərizə səlahiyyətli nümayəndə tərəfindən doldurulduğu halda “Digər məlumatlar” bölməsində həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd üzrə “FİN” və “şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi" məlumatları ərizəyə əlavə edilərək “Axtar” düyməsi sıxılır.






*Qeyd: Səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti* ***"Ərizənin məzmunu"*** *bölməsindən ərizəyə əlavə olunmalıdır.*

Poçt ünvanı haqqında məlumat hissəsində "Poçt ünvanı hüquqi ünvanla eynidir", "Poçt ünvanı faktiki ünvanla eynidir" və ya "Digər poçt ünvanı" seçimi edilə bilər. "Digər poçt ünvanı" seçildikdə müvafiq ünvan məlumatları daxil edilir.




Daha sonra "Əlaqə məlumatları" bölməsində "Mobil telefon nömrəsi" seçimi edilib mobil nömrə daxil edilməklə "Yoxla" düyməsi sıxılır.






## "Rezidentlik sertifikatı məlumatları" bölməsi

Bu bölmədə ilk olaraq "Xarici dövlətin tam adı" xanası üzrə siyahıdan müvafiq xarici dövlət üzrə seçim edilir.




Sonra "Xarici dövlətdə rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin VÖEN-i" xanası üzrə VÖEN məlumatları qeyd edilir. Növbəti addımda "Rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin növü" xanası üzrə müvafiq seçim (Fiziki şəxs, Hüquqi şəxs və ya Dövlət orqanı) edilir.




Rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin növü “Fiziki şəxs” seçildikdə, şəxsin ad, soyad və ata adı məlumatları daxil edilir.




Rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin növü “Hüquqi şəxs” və ya “Dövlət orqanı” seçildikdə müəssisənin adı qeyd edilir.




### “Ərizənin məzmunu” bölməsi

İlk olaraq “Xaricdə əldə ediləcək gəlirin növü” xanası üzrə müvafiq gəlirin növü seçilir.




Sonra “Sertifikatın təqdim ediləcəyi ölkədə daimi nümayəndəlik və ya daimi baza vasitəsilə fəaliyyət göstərirsinizmi” sətri üzrə fəaliyyət göstərildiyi halda “Bəli”, əks halda “Xeyr” seçimi edilir. “Bəli” seçimi edildiyi halda “Daimi nümayəndəliyin adı” xanası üzrə müvafiq VÖEN qeyd olunur.







Daha sonra müraciət edən şəxsin xarici dövlətdə əldə edəcəyi gəlirin ödənilməsinə əsas verən müqavilə olduğu təqdirdə “Sertifikat xarici dövlətdən əldə ediləcək gəlirlərə münasibətdə azadolma və ya aşağı dərəcənin tətbiqi məqsədilə istənildiyi halda gəlirin əldə edilməsinə əsas verən müqavilənin məlumatları” hissəsi üzrə müqavilənin tarixi və nömrəsi qeyd olunur.




Növbəti addımda əgər xarici dövlətdən əldə ediləcək gəlirin məbləği məlumdursa, “Əldə ediləcək gəlir” hissəsi üzrə “Valyutanın kodu” xanasına gəlirin valyuta kodu, “Məbləğ” xanasına xarici valyuta ilə məbləği və “Məbləğ (AZN-lə)” xanasına isə əvvəlki xanada göstərilən məbləğin manatla ekvivalenti daxil edilir.

*Qeyd: “Sertifikat xarici dövlətdən əldə ediləcək gəlirlərə münasibətdə azadolma və ya aşağı dərəcənin tətbiqi məqsədilə istənildiyi halda gəlirin əldə edilməsinə əsas verən müqavilənin məlumatları” və “Əldə ediləcək gəlir” hissələri üzrə hər hansı məlumat məlum deyildirsə, həmin hissələr doldurulmur.*



Sonra “Sertifikatın isənildiyi dövr” hissəsi üzrə verilən “İlə görə” və “Dövrə görə” seçimlərindən müvafiq olanı seçilir.

Əgər sertifikat hər hansı vergi ili üçün istənilirsə, “İlə görə” seçimi edilərək “Vergi ili” xanası üzrə müvafiq il qeyd edilir.




Sertifikatın isənildiyi dövr bir ili əhatə etmədiyi halda “Dövrə görə” seçimi edilərək, “Dövrün başlanğıcı” və “Dövrün sonu” xanası üzrə müvafiq illər daxil edilir.




Sonra “Digər dövlətin rezidentliyin təsdiqi ilə bağlı xüsusi formasının mövcudluğu” hissəsi üzrə digər dövlətin rezidentliyin təsdiqi ilə əlaqədar xüsusi formanın mövcud olub-olmamasından asılı olaraq “Mövcuddur” və ya “Mövcud deyil” seçimi edilir.

Əgər digər dövlətin xüsusi forması mövcuddursa, “Sənədin növü” xanasında verilən seçimlərdən müvafiq olanı seçilir və həmin forma və onun notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi müraciətə əlavə edilir.










Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




İmzala və göndər düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.



“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




“İmtina” düyməsini sıxdıqdan sonra ekranda əks olunana “Sil” düyməsini sıxmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.






Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə "Bildiriş" əks olunur. Həmin pəncərədə **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **"Bağla"** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.

Ərizə

# Rezidentlik sertifikatının alınması haqqında Ərizə (DTA-01 Forması)

Çap et Endir

Qeydiyyat nömrəsi 2616010000066400 | Qəbul olundu 06.03.2026 saat 10:34

## Ümumi məlumatlar

| | |
|---|---|
| Vergi orqanının adı | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi |
| Vergi ödəyicisinin VÖEN-i/Adı | 9900001881/"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Rəhbər | 5N983U3 / MURAD ƏZİMZADƏ FƏRHAD OĞLU |

## Ünvan məlumatları

| | |
|---|---|
| Hüquqi ünvan | AZ0000, BAKI ŞƏHƏRİ XƏZƏR RAYONU, CƏNUBİ QƏSƏBƏSİ, ev 2, mənzil 2 |
| Faktiki ünvan | AZ1072, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, KOROĞLU RƏHİMOV, ev 1, mənzil 1 |

## Digər məlumatlar

### Ərizə səlahiyyətli nümayəndə tərəfindən doldurulduqda, həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin məlumatları (səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti ərizəyə əlavə olunmalıdır)

| | |
|---|---|
| FIN | 5TL48RE |
| Soyadı, adı, atasının adı | HÜSEYİNOVA ÜLVİYYƏ ARİF QIZI |
| Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi | AA3069979 |
| Vəsiqəni verən orqanın adı | Asan 3 |
| Sənədin verilmə tarixi | 08.09.2021 |

| | |
|---|---|
| FIN | |
| Soyadı, adı, atasının adı | HÜSEYİNOVA ÜLVİYYƏ ARİF QIZI |
| Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi | |
| Vəsiqəni verən orqanın adı | Asan 3 |
| Sənədin verilmə tarixi | 08.09.2021 |

### Poçt ünvanı haqqında məlumat

| | |
|---|---|
| Poçt ünvanı | AZ1005, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, - , Mənzil 67 |

### Əlaqə məlumatları

| | |
|---|---|
| Mobil telefon nömrəsi | +(994) 50 |

## Rezidentlik sertifikatı məlumatları

### Rezidentlik sertifikatın təqdim ediləcəyi xarici dövlət və şəxs barədə məlumat

| | |
|---|---|
| Xarici dövlətin tam adı | Almaniya Federativ Respublikası |
| Xarici dövlətdə rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin VÖEN-i | 1111111111 |
| Rezidentlik sertifikatının təqdim ediləcəyi şəxsin növü | Hüquqi şəxs |
| Müəssisənin adı | Cherry consalting |

## Ərizənin məzmunu

### Ərizənin məzmunu haqqında məlumatlar

| | |
|---|---|
| Xaricdə əldə ediləcək gəlirin növü | Beynəlxalq daşımalardan gəlir(mənfəət) |

### Sertifikat xarici dövlətdən əldə ediləcək gəlirlərə münasibətdə azadolma və ya aşağı dərəcənin tətbiqi məqsədilə istənildiyi halda gəlirin əldə edilməsinə əsas verən müqavilənin məlumatları




İstifadəçi tərəfindən göndərilən “Rezidentlik sertifikatının alınması haqqında ərizə (DTA 01-Forması)” “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

